# Rəsulzadə haqqında yeni kitab nəşr olundu

***"I Beynəlxalq Rəsulzadə Qiraətləri. Məhəmməd Əmin Rəsulzadənin irsi Müstəqilik, Demokratiya və Dövlətçilik dəyərləri sistemində" kitabının təqdimat mərasimi keçirilib.***

Kitab tarix elmləri doktoru, professor Solmaz Rüstəmova -Tohidinin redaktorluğu ilə nəşrə hazırlanıb və "Rəsulzadə ev muzeyi" İctimai Qrupu tərəfindən nəşr edilib.




***Kitab Cümhuriyyət xadimlərinin irsinin xarici ölkələrdən Azərbaycana gətirilməsi, tanıdılması və tədqiqində misilsiz xidmətləri olmuş, bu günlərdə dünyasını dəyişmiş görkəmli diplomat və ictimai xadim Ramiz Abutalıbovun işıqlı xatirəsinə həsr olunub.***

Kitabda "Beynəlxalq Rəsulzadə Qiraətləri. M.Ə.Rəsulzadə irsi Demokratiya, Müstəqillik və Dövlətçilik dəyərləri sistemində" adı altında iki ildən bir keçirilməsi nəzərdə tutulan beynəlxalq konfranslar silsiləsindən 2020-2022-ci illəri əhatə edən "I Beynəlxalq Rəsulzadə Qiraətləri"nin materialları toplanıb. 11 ölkədən 40 nəfər alim və tədqiqatçının 4 dildə elmi və publisistik məqalələrindən, eləcə də sənəd təqdimatı-araşdırmalarından ibarət olan kitabın 5 bölümündə M.Ə.Rəsulzadənin ictimai, siyasi və dövlət xadimi kimi fəaliyyəti, milli modern dövlət quruculuğu konsepsiyası, Azərbaycançılıq ideologiyası, Demokratiya, Azad Cəmiyyət, Vətəndaşlıq, İnsan haqları anlayışları, Qafqaz birliyi, Türk birliyi və d. məsələlərə dair ideoloji, siyasi, ictimai, dini baxışları, İran, Türkiyə, Ukrayna və Avropa ölkələrində siyasi-ictimai hadisələrə münasibəti və d. məsələlər araşdırılır, Azərbaycan dili, ədəbiyyatına dair fikirləri, Nizami Gəncəvi haqqında əsəri, mədəni irs, millət, dövlət və mədəniyyət anlayışlarına kulturoloji baxışları tədqiq olunur.

Türküstan.- 2022.- 1-7 fevral.- S.12.